http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 13 (1588) 10 iyul 2014 - cü il Qiyməti 40 qəpik

# Prezident İlham Əliyev Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində iştirak edib




**Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsi keçirilmişdir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə iştirak etmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov tədbirdə çıxış edərək dördüncü müşavirədən keçən müddətdə görülmüş işlərdən danışdı.

Dövlətimizin başçısı müşavirədə nitq söylədi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin müşavirəsi iki ildən bir keçirilir.

Müşavirədə Azərbaycanın xarici siyasətinin gündəliyində duran aktual məsələlər və gələcək fəaliyyət istiqamətləri üzrə müzakirələr aparıldı.

## Bu sayımızda



Azərbaycan Tibb Universiteti növbəti məzunlarını yola salır



Bakıda tənəffüs sistemi üzrə Azərbaycan-Türkiyə ortaq zirvə toplantısı keçirilib 2

Azərbaycanda ilk dəfə ATU-nun Tədris Terapevtik klinikasının Ürək Damar Mərkəzində beyin damarının trombu çıxarılıb 2

Onkoloji xəstələrdə angiogenezin immunohistokimyəvi göstəricilərinin təyini əsasında xəstəliyin diaqnostik və proqnostik nəticələrinin yaxşılaşdırılması 3

Böyük sevgi ilə elmə qovuşan həyat dastanı 6

# Bakıda tənəffüs sistemi üzrə Azərbaycan-Türkiyə ortaq zirvə toplantısı keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikası daha bir möhtəşəm toplantıya ev sahibliyi edib. İyunun 27-də Azərbaycan Tibb Universitetinin və Türkiyənin Akademik Solunum Dərnəyinin təşkilatçılığı ilə tənəffüs sistemi xəstəlikləri üzrə Azərbaycan-Türkiyə ortaq zirvə toplantısı öz işinə başlamışdır.**

Toplalantını giriş nitqiylə açan universitetin elmi işlər üzrə prorektoru, ə.e.x., professor İbrahim İsayev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91 illiyi ilə əlaqədar ölkəmizdə bir sıra beynəlxalq tədbirlərin keçirildiyini diqqətə çatdırmışdır. O, qeyd etmişdir ki, keçirilən Azərbaycan-Türkiyə səhiyyə forumu da həmin tədbirlərdən biridir.

Sözünə davam edən İ.İsayev bildirmişdir ki, XXI əsrdə dünyada baş verən iqlim dəyişiklikləri, ekoloji tarazlığın pozulması, ümumiyyətlə, ətraf mühitin insan orqanizminə təsiri, əsasən başqa xəstəliklərlə müqayisədə allergik və onkoloji xəstəliklərin sayını bir qədər artırmışdır. İ.İsayevin sözlərinə görə, tənəffüs sistemi xəstəlikləri təbabətin ən aktual sahələrindən biridir. Bu xəstəliyin diaqnostika və müalicəsinin düzgün aparılması insan sağlamlığının qorunmasında ən vacib şərtlərdəndir. Prorektor qeyd etmişdir ki, forumun keçirilməsində əsas məqsəd Türkiyənin tanınmış mütəxəssisləri ilə birgə tibb elminin bu sahəsində əldə edilən son yenilikləri müzakirə etməkdir. Bu baxımdan da Azərbaycan Tibb Universitetində keçirilən ortaq səhiyyə forumu hər iki qardaş ölkənin həkim-mütəxəssisləri üçün böyük önəm daşıyır. ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovun salamını tədbir iştirakçılarına çatdıran prorektor forumun işinə uğurlar arzulamışdır.

Sonra İstanbul Universiteti Cərrahpaşa tibb fakültəsinin tənəffüs yolu xəstəlikləri şöbəsinin professorları Bülent Tutluoğlu və Günay Aydın, ATU-nun II uşaq xəstəlikləri kafedrasının müdiri, Allerqoloq, İmmunoloq və İmmunoreabilitoloqlar Elmi Cəmiyyətinin prezidenti, ə.e.x. professor Amaliya Əyyubova çıxış edərək forumun əhəmiyyətindən danışmışlar.





Tədbirdə eyni zamanda, Türkiyənin Akademik Solunum Dərnəyinin fəaliyyəti haqqında da söhbət açılmış və onun həyata keçirdiyi proqramlar barədə toplantı iştirakçılarına ətraflı məlumat verilmişdir. ATU-nun əməkdaşlarının və Türkiyəli qonaqların bir-birlərinə təqdim etdikləri xatirə hədiyyələrindən sonra forum işini proqram əsasında nəzərdə tutulmuş panel iclasları üzrə davam etdirmişdir.

Tanınmış türkiyəli alimlər Haluk Çokuğraşın "Bronxial astmanın risk faktorları", Kamil Kaynakın "Ağ ciyərlərin xronik obstruktiv xəstəliyinin müalicəsində ölümazaldıcı müdaxilə", Selim Badurun "Viral tənəffüs sistemi infeksiyaları", Tevfik Özlünün "Toplum mənşəli pnevmaniyalar", həmçinin ATU-nun əməkdaşları Məleykə Kərimovanın "Respirator xəstəliklərlə tez- tez xəstələnən uşaqlarda opportunist infeksiyaların rolu", Əlizamin Sadiqovun "Ağ ciyərlərin xronik obstruktiv xəstəliyinin kəskinləşməsi", Ramin Bayramlının "Tənəffüs yolu infeksiyalarının diaqnostikasında mikrobioloji laboratoriyanın rolu", eləcə də digər türkiyəli və yerli mütəxəssislərin tənəffüs sistemi xəstəliklərinə dair ən aktual problemləri haqqında və tibbin bu sahəsində tətbiq edilən son müalicə metodları ilə bağlı məruzələri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.




İki gün davam edən Azərbaycan-Türkiyə ortaq zirvə toplantısı öz işini iyunun 28-də başa çatdırmışdır.

**MƏNSUR**

# Azərbaycanda ilk dəfə ATU-nun Tədris Terapevtik Klinikasının Ürək Damar Mərkəzində beyin damarının trombu çıxarılıb

**ATU-nun Tədris Terapevtik Klinikasının həkimləri Azərbaycanda ilk dəfə kəskin insult xəstəsində beyin damarında tromb əməliyyatını uğurla icra ediblər.**



36 yaşlı qadın xəstə Universitetin Tədris Terapevtik Klinikasına müraciət edərkən 3 saat ərzində sol qol və ayağını hərəkət etdirə bilmirmiş. Xəstənin nevroloji dəyərləndirməsi zamanı həkimlər beyinin sağ tərəfində ciddi insultdan şübhələniblər. Sonradan tomoqrafiya zamanı bu diaqnoz təsdiqlənib. Məlum olub ki, sağ daxili yuxu arteriyası 100 faiz tromblaşıb.

ATU-nun həkimləri tərəfindən ilk dəfə olaraq beyin damarlarında trombun çıxarılması (Trombektomiya) əməliyyatı uğurla həyata keçirilib. Saat yarım davam edən əməliyyat kardioloq-aritmoloq, dosent Fərid Əliyev və invaziv-radioloq Ağakişi Yəhyayev tərəfindən icra olunub. Xəstə artıq reanimasiya şöbəsindən çıxarılıb.

Dosent Fərid Əliyev hazırda xəstənin vəziyyətinin stabil olduğunu bildirir. Onun sözlərinə görə, belə xəstəliklər zamanı ölüm ehtimalı çox yüksəkdir: "Çünki beyin yarımkürəsi tam insult idi. Amma biz insultun, ətrafdakı toxumaların ölümünün qarşısını ala bilmişik. Cavan xəstələr insultu daha pis keçirir. Çünki gənc insanlarda qan dövranı ani ortaya çıxan tıxanmaya cavab verə bilmir. Lakin xəstənin vəziyyətində hazırda pisləşmə yoxdur. Artıq sol ayaqda güc tonusu bərpa olmağa başlayır. Xəstənin vəziyyəti tam sabitləşəndən sonra insultu ortaya çıxaran səbəblər araşdırılacaq".

# AMEA-nın həqiqi və müxbir üzvlüyünə seçkilərin nəticələri məlum olmuşdur

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi və müxbir üzvlüyünə seçkilərin nəticələri məlum olmuşdur.

Bununla əlaqədar keçirilmiş ümumi yığıncaqda AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirmişdir ki, akademiyanın həqiqi üzvlüyünə 43, müxbir üzvlüyünə isə 265 nəfərin namizədliyi irəli sürülmüşdür. A.Əlizadə qeyd etmişdir ki, akademik seçkilər istər hüquqi, istərsə də texniki baxımdan müasir tələblərə uyğun və şəffaf keçirilmişdir.

Səsvermə nəticəsində akademiyaya 26 həqiqi və 50 müxbir üzv seçilmişdir. Keçirilən seçkilər zamanı ATU-nun bioüzvi və biofiziki kimya kafedrasının müdiri, professor Dilqəm Tağıyev Kimya elmləri bölməsi üzrə kimyəvi genetika və katalis ixtisası üzrə akademiyanın həqiqi, Biologiya və tibb bölməsi üzrə tibb elmləri ixtisası üzrə I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov, mikrobiologiya ixtisası üzrə mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Zakir Qarayev, bioinformatika ixtisası üzrə tibbi biologiya və genetika kafedrasının professoru İlham Şahmuradov müxbir üzvləri seçiliblər.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanda şəkərli diabet xəstələrinin müalicəsində pompalar tətbiq olunacaqdır

**Azərbaycanda ilk dəfə şəkərli diabetdən əziyyət çəkən uşaqlara insulinin vurulmasında xüsusi cihazlardan - pompalardan istifadə olunacaqdır.**

Diabetli uşaqların müalicəsində əvəzsiz olan bu cihazlar Səhiyyə Nazirliyi tərəfindən dövlət hesabına alınaraq Respublika Endokrinoloji Mərkəzinə təqdim olunmuşdur.

Nazirliyin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, ilkin mərhələdə diabetli uşaqlar üçün 90 ədəd pompa nəzərdə tutulmuşdur. Pompa vasitəsilə insulinin günün istənilən vaxtında vurulması, mütləq miqdarı kənardan proqramlaşdırılır. Verilən proqrama əsasən insulin bədənə yeridilir. Bu da orqanizmdə şəkəri daha düzgün kompensasiya etməyə imkan verir. Pompada ultraqısa və yaxud qısa təsirli insulin istifadə olunur.

Digər insulin yeridilmə metodunda (insulin preparatlarının infuziyasında) isə gündə 1-2 dəfə bazal insulin xəstənin yediyi qidaya uyğun 3-4 dəfə vurulur. Amma yeni metodda insulin iynəsi bir dəfə dəri altına yeridilir, şunur vasitəsilə pompayla əlaqələndirilir və üç gündən bir dəyişdirilir.

# Özbəkistanda tibb sərgisi açılacaqdır

Sentyabrın 25-də Özbəkistanın Daşkənd şəhərində 4-cü beynəlxalq ixtisaslaşmış "UzMedExpo" tibb avadanlığı, əczaçılıq və stomatologiya sərgisi açılacaqdır.

AzərTAc xəbər verir ki, ölkəmizdə fəaliyyət göstərən sahibkarlar və işgüzar dairələr də bu sərgidə iştiraka dəvət olunurlar.

# Onkoloji xəstələrdə angiogenezin immunohistokimyəvi göstəricilərinin təyini əsasında xəstəliyin diaqnostik və proqnostik nəticələrinin yaxşılaşdırılması

**◆Son illərin elmi tədqiqatları müxtəlif orqan və sistemlərin patoloji vəziyyətləri zamanı angiogenez və inkişaf faktorları arasında sıx korrelyasyon əlaqələrin olduğunu aşkar etmişdir.**

Angiogenez artıq mövcüd olan damarlardan yeni damarların yaranma prosesidir. Bu proses angiogen faktorların sekresiyası ilə başlayır. Ekspresiya yaxınlıqda yerləşən qan damarı divarında əsas zarın deqradasiyası, endoteliositlərin mitotik bölünməsi, onların stromaya miqrasiyası, ekstrasellülyar matriksin proteolitik deqradasiyası ilə xarakterizə olunur.

Angiogenez normal və zədələnmiş toxumalar üçün xarakterik deyil, o yalnız şişlər, kəskin və xroniki iltihabı dəyişikliklər, həmçinin diabetik angiopatiyalar zamanı aktivləşir.

Angiogenezin orqan və toxumalarda ən çox öyrənilən aktivatorları damar endotelisinin böyümə amili (VEGF) və fibroblastların inkişaf amilidir.

VEGF qlikoprotein təbiətli, 40-50 kilodalton kütləli maddə olub, in vitro endoteliositlərin inkişafına səbəb olur, in vivo isə angiogenezi induksiya edir. VEGF ekspressiyası orqanizmdə hormonal yolla tənzim edilir. Aşkar edilib ki, hipoksiya VEGF ekspressiyasını kəskin surətdə stimulə edir. Həmçinin bir sira sitokinlər və inkişaf faktorları da VEGF sekresiyasını artırmış olur. Qeyd edilir ki, VEGF damar keçiriciliyini histaminlə müqaisədə min dəfə çox dəyişdirir.

Aparılan tədqiqatlar nəticəsində həmçinin aydın olmuşdur ki, angiogen aktivlik neoplastik patologiyalar zamanı damar inkişafına təsir etməklə yanaşı, hüceyrələrin seleksiyasına, diferensiasiyasına və ixtisaslaşmasına səbəb olur.

Müxtəlif lokalizasiyalı solid şişlərdə angiogenezin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, damar endotelisinin böyümə amili angiogenezin güclü stimulyatoru olduğundan, o, həm də terapevtik təsir üçün effektiv hədəf hesab edilir. Damar endotelinin böyümə amilinin anti-VEGF terapiya nəticəsində blokadaya alınması endotelial damar hüceyrələrinin proliferasiyasının və miqrasiyasını qarşısını alır. Bu, damarların böyüməsinin inhibisiyasına gətirir və metastazverməni zəiflədir. Digər tərəfdən, anti-VEGF terapiya şiş daxilində təzyiqi aşağı salmaqla, şişin qan təchizatı sistemini sitotoksik preparatların çatdırılması üçün daha effektiv edir.




VEGF neoplazmaların erkən diaqnostikasında da mühüm əhəmiyyət kəsb edir. Belə ki, yumşaq toxuma və sümük şişlərində onkomarker sayılan osteonektinin, osteokalsinin, CEA qanda səviyyəsi qeyd olunmadığı halda belə, VEGF miqdarının yüksəldiyi aşkar olunur. C.Tampfer bu amilin yumşaq toxuma və sümük şişləri zamanı müstəqil proqnostik meyar kimi qəbul olunmasını məqsədəuyğun sayır.



Müxtəlif lokalizasiyalı bədxassəli xəstəliklər kifayət qədərdir və onların hər biri özünəməxsus klinik gedişə və xüsusiyyətlərə malikdir. Bu xəstəliklərin diaqnostikasında müasir müayinə metodlarından (rentgenoloji, endoskopik, histoloji, sitoloji və s.) geniş istifadə edilməsinə baxmayaraq, hər bir neoplazmanın klinik gedişinin özünəməxsus müxtəlifliyi, həmçinin tətbiq edilən müayinə metodlarının ardıcıllığının tam müəyyənləşdirilməməsi əksər hallarda bu xəstəliklərin diaqnozunun gecikmiş mərhələdə qoyulmasına gətirib çıxarır.

Qeyd edilən metodlarla yanaşı şiş toxumasında damarlanma səviyəsinin immun histokimyəvi tədqiqi çox mühüm əhəmiyyətə malikdir.

Təəssüf ki, şiş toxumasında immunohistokimyəvi üsüllarla angiogenezin tədqiqi yalnız bir neçə elmi tədqiqat (yumşaq toxuma, sümük və genital orqanların şişləri) işində aparılmışdır. Eyni zamanda xarici ədədbiyyatlarda da həm epitelial, həm də mezenximal şişlər zamanı qeyd edilən metoddan geniş istifadə edilməsi barədə məlumatlara az rast gəlinir.

Yuxarıda geyd edilənlərə görə, müxtəlif lokalizasiyalı bədxassəli şiş formasında angiogenezin öyrənilməsi tərəfimizdən mühüm elmi-praktik əhəmiyyətə malik məsələ hesab edilmişdir.




Hazırki tədqiqatın məqsədi müxtəlif lokalizasiyalı şişlər zamani şişin histotipindən və histodiferensiasiya dərəcəsindən asılı olaraq angiogenezin immunohistokimyəvi göstəricilərinin təyini əsasında xəstəliyin erkən diaqnostik və proqnostik



nəticələrinin yaxşılaşdırılmasından ibarətdir. Bu zaman angiogenezin xəstəliyin klinik gedişi və proqressiyasinda (residiv və metastazvermə) rolu aydınlaşdırılır. Müxtəlif lokalizasiyali şişlər zamanı anti-VEGF terapiya (avastin preparatı) tətbiqi əsaslandırılır. Toplanmış materialların kompyuter bazası yaradılmış, alınmış məlumatlar müvafiq statistik üsullarla işlənilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq Azərbaycan Tibb Universitetinin onkologiya və histologiya kafedralarının əməkdaşlarının (professor H.Muradov, dosent N.Mehdiyeva, t.ü.f.d. S.Abdiyeva) müştərək fəaliyyəti nəticəsində *«Onkoloji xəstələrdə angiogenezin immunohistokimyəvi göstəricilərinin təyini əsasında xəstəliyin diaqnostik və proqnostik nəticələrinin yaxşılaşdırılması»* mövzusunda birgə layihə hazırlanmış və Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fonduna təqdim edilmişdir. Sevindirici haldır ki, məhz bu layihə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun təşkil etdiyi fundamental və tətbiqi layihələr üzrə Qrant müsabiqəsinin qalibi hesab olunmuşdur. Layihənin nömrəsi 2011-ci il EİF-2011-1 (3)- 82/45-M-43 - Qrantın məbləği – 80.000 manat). Qrant müsabiqəsi nəticəsində əldə edilən məbləğ hesabına ATU-nun Onkoloji Klinikasının patomorfoloji laboratoriyasında müasir tələblərə cavab verən bir laboratoriya qurulmuşdur. Hal-hazırda laboratoriyada müayinələr MOTİC (Almaniya) mikroskopunda, Mikron HM-430 mikrotomunda, Mikron CP-60 parafin




dondurucusunda, LAB Incubator termostatında aparılır. Histoloji, histokimyəvi və immun histokimyəvi tədqiqatlarda ABŞ, İngiltərə, Fransa və Almaniya istehsallı reaktivlərdən istifadə edilir.

**Laboratoriyada aşağıdakı diaqnostik müayinələr aparılır:**

*Sitoloji diaqnostika, biopsiyaların histoloji müayinəsi, cərrahi əməliyyat zamanı götürülən orqan və ya orqan fraqmentlərində təyin olunan patoloji proseslərin histoloji müayinəsi, histokimyəvi müayinələr, immun histokimyəvi reaksiyalar.*

**Habil MURADOV,**
*Histologiya, embriologiya və sitologiya kafedrasının professoru, layihənin rəhbəri*

**ATU-da Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Qrant layihəsi**

# Azərbaycan Tibb Universiteti

**Bəlkə də çoxlarınız bu fikirlə razılaşacaqsınız ki, gəncliyin ən dolğun, ən parlaq, ən ülvi, ən kövrək və ən şirin anları tələbəlik illərinə təsadüf edir. Tələbə oxuduğu illər ərzində yaxşı dərk edir ki, ali məktəbi başa vurandan sonra müstəqil həyata qədəm qoyacaq, qarşısına qoyduğu məqsədə çatmaq üçün inamlı addımlarını atacaqdır. İnamlı addımlarını atması üçün isə onun üzərinə əzmlə çalışmaq və yaxşı oxumaq vəzifəsi düşür. Təcrübə də göstərir ki, bilikli və savadlı məzun qarşılaşdığı bütün problemləri anındaca aradan qaldırmaq və dəf etmək imkanlarına malik olur. Onlar həm də zamanın sınaqlarından keçərək əsl vətəndaş kimi yetişirlər.**



Mərhim şairimiz **Cabir Novruz** tələbəni *"adi dolanan, dünyaya, cahana, insana və gələcəyə inanan"* kimi xarakterizə etmişdir. Həqiqətən də bu, belədir.

... Elə iyunun 25-də Azərbaycan Tibb Universitetinin tələbə şəhərciyində **"gələcəyə inananlar"ın "Məzun günü"** geniş şəkildə qeyd olunurdu. Şəhərcikdə bir qələbəlik var idi və bura təkcə məzunlar deyil, valideynlər də gəlmişdilər. Məzunlar universiteti uğurla başa vurduqlarına görə sevinir, təəssüratlarını ətrafındakılarla bölüşürdülər. Onları təbrik üçün mötəbər qonaqlar da tədbirə təşrif gətirmişdilər.

Tədbirdə ilk öncə Azərbaycan Tibb Universitetinin rektoru, millət vəkili, akademik **Əhliman Əmiraslanov** çıxış edərək, məzunları və tədbir iştirakçılarını salamladı. 2014-cü ilin buraxılış yekunu haqda məlumat verdi, universitetin qazandığı uğurlara və müvəffəqiyyətlərə ekskursiya etdi:

## "MƏZUNLARIMIZ DÜNYANIN 28 ÖLKƏSİNDƏ ÇALIŞIR"

- Tibb fakültəsi Bakı Dövlət Universitetinin nəzdində 11 il fakültə kimi, 1930-cu ildən etibarən isə müstəqil ali təhsil müəssisəsi



kimi fəaliyyət göstərib. Bu dövr ərzində Azərbaycan Tibb Universiteti 71 mindən çox həkim və əczaçı kadr hazırlayıb. Hazırda universitetin məzunları təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından çox-çox uzaqlarda fəaliyyət göstərirlər.

Bizdə olan məlumata görə, məzunlarımız dünyanın 28 ölkəsində həkim və əczaçı kimi fəaliyyətlərini davam etdirirlər. Universitetimizin inkişafının mərhələlərinə fikir versək görərik ki, bu ali təhsil ocağının həm çətin, həm də uğurlu günləri olub. Bütövlükdə universitetin istər maddi-texniki bazasının möhkəmləndirilməsi, istər kadr potensialının hazırlanmasında ulu öndər Heydər Əliyevin çox böyük qayğısı və diqqəti olmuşdur. Universitetin yeni bazalarının, klinikalarının yaradılması məhz ulu öndərin adı ilə bağlıdır. Böyük məmnuniyyətlə qeyd etmək istərdim ki, dövlətimiz tərəfindən tibbi təhsilə qayğı bu gün də davam edir. Möhtərəm prezidentimiz İlham Əliyev cənablarının qayğısı və diqqəti sayəsində son illər universitetimizin daha üç klinikası fəaliyyətə başlayıb. Bu, onkoloji, tədris-terapevtik və tədris-cərrahi klinikalardır. Bu klinikalar ən müasir avadanlıqlarla təchiz olunub, universitetin professor-müəllim heyətinin, tələbələrinin ixtiyarına verilib. Ulu öndər təkcə 1990-cı ilin əvvəllərində yenidən hakimiyyətə qayıtdıqdan sonra 2 dəfə universitetimizdə olub. Bu gördüyümüz 11 mərtəbəli tədris binasının açılış mərasimində iştirak edib, universitetin professor, müəllim-tələbə kollektivi qarşısında böyük nitq söyləyib. Sonra isə universitetimizin 70 İllik Yubiley mərasimində də iştirak edib.

Cənab Prezident İlham Əliyev universitetimizdə üç dəfə - iki dəfə tədris-terapevtik klinikada, sonuncu dəfə isə tədris-cərrahi klinikanın açılış mərasimində olub. Universitetimizin imkanları genişlənir və hazırladığımız kadrların keyfiyyəti get-gedə yüksəlir. Təkcə onu qeyd edim ki, bü il universiteti dünyanın 17 ölkəsini təmsil edən 151 xarici vətəndaş, o cümlədən 1144 həkim və əczaçı bitirir ki, onlardan 63 nəfəri fərqlənmə diplomuna layiq görülüb, 5-i isə prezident təqaüdçüsüdür.

**Əziz həkimlər, əziz valideynlər!** Biz hesab edirik ki, bu gün müstəqil həyata yola saldığımız məzunlarımız gələcəkdə Azərbaycan Tibb Universitetinin adını həmişə yüksək tutacaq, universitetimizin onlara çəkdiyi zəhməti özlərinin işləri və gündəlik fəaliyyətləri ilə doğruldacaqlar. Bilirsiniz ki, səhiyyəmiz çox sürətlə inkişaf edir. Bu günkü məzunlarımızın çalışacağı xəstəxanalar, klinikalar, diaqnostik mərkəzlərin imkanları son dərəcə genişdir, əminəm ki, məzunlarımız bu klinikalarda uğurla fəaliyyət göstərəcəklər.

Univerisitet son illər xeyli uğurlara imza atmışdır. Artıq 4-cü ildir universitetimizdə rezidentura sistemi tətbiq olunub. Bu günkü məzunların böyük bir qismi rezidenturada öz təhsillərini davam etdirəcəklər. Rezidenturanı bitirdikdən sonra yüksək ixtisaslı mütəxəssis kimi fəaliyyətə başlayacaqlar. Mən çox danışıb vaxtınızı almaq istəmirəm. Xeyli qonaqlarımız var. Onların da ürəkləri doludur və sizi təbrik etməyə gəliblər. Mən məzunlarımızı bu gün həkim adını qəbul etmələri münasibəti ilə ürəkdən təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.



## "AVROPA STANDARTI İLƏ YANAŞI, AZƏRBAYCAN STANDARTINDAN DA DANIŞMALIYIQ"

Sonra məzunları təbrik üçün Səhiyyə nazirinin müavini **Elsevər Ağayev** ürək sözlərini söylədi:

**- Hörmətli rektor! Hörmətli sədarət! Çox sevimli məzunlar! Sevimli müəllimlərimiz və valideynlər!** Bir neçə ildir ki, **"Məzun Günü"ndə** məzunları təbrik etmək üçün mənə də söz verilir. Müəllimlərimizin qarşısında çıxış edəndə biz də məzunlaşıb və məmnunlaşırıq.

Baxmayaraq ki, həmin dövrdən 30 ildən artıq vaxt keçib, müəllimlərimizin qarşısında çıxış etmək özü bir məsuliyyətdir. Bu gözəl gün münasibəti ilə Səhiyyə Nazirliyinin rəhbərliyi adından, hörmətli nazirimizin adından sizi təbrik edirəm. Siz bu gündən etibarən müstəqil həyata qədəm qoyursunuz. Hörmətli **Əhliman müəllim** də vurğuladı ki, bu gün Azərbaycan səhiyyəsi ölkənin inkişaf tempinə uyğun olaraq inkişaf edir. Biz hər zaman qürurla qeyd edirik ki, son illər ölkəmizdə 500-də artıq tibb müəssisəsi inşa edilib və əsaslı təmir olunaraq müasir avadanlıqlarla təchiz olunubdur. Belə tibb müəssisələrindən biri də Tibb Universitetinin Cərrahiyyə Klinikasıdır. Möhtərəm prezidentimiz ölkənin birinci xanımı ilə klinikanın açılışında iştirak etməklə bu klinikaya şərəf verdilər.

Eyni zamanda ölkənin müxtəlif bölgələrində bu tipli tibb müəssisələrin açılışında ölkə rəhbəri iştirak edərək xeyir-dua verir. Çıxışlarında xüsusilə qeyd edir ki, tibb müəssisələrinin açılışında Avropa standartlarından söhbət düşəndə Azərbaycan standartından da danışmaq lazımdır. Ancaq tibb müəssisələri nə qədər müasir, nə qədər gözəl olsalar da, onu yaraşıqlı edən işçiləridir, yeni həkimlərdir. Ali savadlı həkimlərimiz olmadan aydındır ki, müasir tipli tibbi müəssisələrimiz əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərə bilməz. Söz yox ki, Azərbaycan səhiyyəsində



Son olaraq onu deyirəm ki, əziz məzunlar, siz universitetlə heç zaman əlaqəni kəsməyin. Sizi yüksək ixtisaslı mütəxəssis və həkim kimi yetişdirmiş müəllimlərinizlə daim əlaqəni saxlayın. Hər hansı çətinliklə qarşılaşsanız, universitet kollektivi sizlərə hər zaman kömək əlini uzadacaq. Bir daha sizi təbrik edirəm! Fəaliyyətiniz uğurlu və xeyirli olsun! Gələcəkdə Azərbaycan xalqının sağlamlığı keşiyində uğurla fəaliyyət göstərməyinizi arzu edirəm!





aparılan islahatların ən vacib hissələrindən biri kadr hazırlığı, tibbi təhsilin inkişafıdır. Bu istiqamətdə hörmətli rektorumuzun vurğuladığı kimi, çox mühüm addımlar atılıbdır. Mərhələli tədrisə keçilibdir. Ötən il rezidenturaya ilk qəbul olan məzunlarımız ölkəmizin tibb müəssisələrində fəaliyyətə başlayıblar. Uzun illər gözləmisiniz ki, 6 ilik təhsil bitsin və siz müstəqil həyata qədəm qoyasınız. Sizin müəllimlər qarşısında imtahanınız bitsə də, həyat qarşısında yeni imtahanlarınız başlayır. Arzu edirəm ki, həyat məktəbinin layiqli məzunları, Azərbaycanın layiqli övladları, layiqli həkimləri olasınız. Bir daha sizi bu yaddaqalan gün münasibəti ilə ürəkdən təbrik edirəm.




### "AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN YENİ KADR HAZIRLIĞININ ŞAHİDİ OLURUQ"

# növbəti məzunlarını yola salır



Sonra söz Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı **Nəsib Məhəmməliyevə** verildi:

**- Çox hörmətli professor-müəllim heyəti! Çox hörmətli müəllimlər! Qonaqlar və əziz bu günün məzunları!** Mən də Əhliman müəllimin sözlərinə qoşularaq sizin hər birinizi bu gözəl əlamətdar gün münasibəti ilə təbrik edirəm. Hər il ənənəvi olaraq Azərbaycan Tibb Universitetində **"Məzun Günü"** təntənəli şəkildə qeyd olunur, müstəqil həkim ordusu, cəmiyyətimiz və xalqımıza xidmət üçün təhvil verilir. Burada dövlətimizin inkişafı, tibb sahəsində olan və kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlər xatırlanır və sadalanır. Bu da olduqca xoş haldır və sanki bir hesabat xarakteri daşıyır. Biz burada Azərbaycan Tibb Universitetinin yeni kadr hazırlığının, gənclərə verilən tövsiyələrin şahidi oluruq ki, bu da ümumi işimizin xeyrinədir.

Qeyd olundu ki, Respublikamızda səhiyyə sahəsində çox böyük inkişaf var. Təkcə Bakıda deyil, respublikamızın müxtəlif bölgələrində, ən ucqar kəndlərdə belə yeni xəstəxanalar və polilklinikalar inşa edilərək xalqın istifadəsinə verilir. Əvvəllər mövcud olanlar yüksək səviyyədə təmir olunur və maddi-texniki bazası yaxşılaşdırılır. Artıq tibb sahəsi, səhiyyə sahəsi irəlidə gedən bir sahəyə çevrilib. Mən məzunlara arzu edərdim ki, həkimlik peşəsinə uyğun olaraq humanist olsunlar. Heç zaman cəmiyyətin təbəqələri arasında ayrı-seçkilik etməsinlər və ictimai-siyasi proseslərdə həmişə dövlətimizin yanında olsunlar. Hörmətli Prezidentimizin apardığı daxili və xarici siyasətdə qazandığı uğurları təbliğ etsin və dəstəkləsinlər. Gənc nəslə bir növ örnək, əsl vətənpərvər olsunlar.

Qeyd edim ki, bu tədbir Azərbaycan Silahlı Qüvvələrinin ildönümü ərəfəsinə düşüb.

Bu gün münasibətilə Azərbaycanımızın ərazi bütövlüyünün təminatçısı olan Silahlı Qüvvələrdə xidmət edənləri və universitetin hərbi fakültəsinin məzunlarını, onlara dərs deyən professor-müəllim heyətini və o cümlədən xalqımızı təbrik edirəm. Arzu edirəm ki, Silahlı Qüvvələrimiz ən ağrılı problemimiz olan Dağlıq Qarabağ probleminin həllində öz sözünü desin, onlara qismət olsun ki, üçrəngli bayrağımızı Xankəndində və digər işğal olunmuş ərazilərdə dalğalandırsınlar.

### "MƏZUNLAR ARASINDA YÜZLƏRLƏ HƏKİM, FELDŞERLƏRƏ RAST GƏLMƏK BİZDƏ QÜRUR HİSSİ YARADIR"

Sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, general-mayor **Natiq Əliyev** çıxış etdi:

**- Cənab Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov! Hörmətli mərasim iştirakçıları!** Respublikamızın nüfuzlu və qocaman elm və təhsil ocağı olan Azərbaycan Tibb Universitetinin həyatında bu gün çox əlamətdar bir gündür. 2014-cü ilin məzunları – gənc həkimlər 6 il universitet həyatının bilik və təcrübəsindən bəhrələnərək xalqımızın sağlamlığı keşiyində durmaq üçün həyata vəsiqə və öz müəllimlərindən peşələrini layiqincə davam etdirmək üçün xeyir-dua alıblar. Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev ordu quruculuğunun bütün sahələrində olduğu kimi hərbi təbabətin inkişafına da böyük önəm vermiş, bu məqsədlə Azərbaycan Tibb Universitetinin nəzdində hərbi fakültənin yaranmasına sərəncam vermişdir. Bu gün Azərbaycan Tibb Universitetinin məzunları arasında yüzlərlə həkim, feldşerlərə rast gəlmək bizdə qürur və fərəh hissi yaradır. Hesab edirəm ki, onlar xalqımızın sağlamlığı keşiyində



möhkəm duracaq, Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin adını öz fədakar əməyi ilə doğruldacaqlar.

**Əziz məzunlar! Zabit və gizirlər!** Sizi Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından universiteti müvəffəqiyyətlə bitirməyiniz münasibəti ilə təbrik edir, sizə səhiyyəmizin tərəqqisi naminə uğurlar arzulayıram.

*Qeyd edək ki, 2000-ci ildən etibarən ulu öndərin qərarı ilə Hərbi tibb fakültəsi fəaliyyətə başlayıb. Bu illər ərzində fakültənin bir sıra məzunları vətənimizin keşiyində layiqincə dayanmış, peşə borclarını uğurla yerinə yetirmişlər. Bu gün də fakültə ənənəsinə sadiq qalaraq özünün 107 məzununu layiqli hərbi həkim və hərbi feldşer kimi Vətənə xidmətə yollayır.*

### "AZƏRBAYCANIN ZİYALI ELİTASININ FORMALAŞMASINDA HƏKİMLƏRİN MÜSTƏSNA ROLU OLUB"



Sonra YAP-ın Nəsimi Rayon təşkilatının sədri **Məlahət İbrahimqızına** söz verildi:

**- Çox əziz məzunlar! Hörmətli Əhliman müəllim! Əziz qonaqlar! Çox dəyərli valideynlər!** Məndən öncə edilmiş bütün təbriklərə səmimi qəlbdən qoşuluram. Bütün valideynlərə, müəllimlərə gözünüz aydın olsun deyirəm. Məzunlarımıza isə can sağlığı, uğurlar, yeni-yeni nailiyyətlər arzulayıram. İstər ulu öndərimizin həkimlərə verdiyi qiymət, istər möhtərəm prezidentimiz cənab İlham Əliyevin tibb işçiləri, həkimlər barəsində dediyi sözlər tarixə qızıl hərflərlə yazılan sözlərdir. Tarix boyu, eləcə də təkcə XX əsrdə Azərbaycanın ictimai-siyasi həyatında, Azərbaycanın dövlətçilik tarixində həkimlərin böyük xidmətləri, müstəsna rolu olmuşdur. Nəriman Nərimanov heç vaxt təsəvvür etməmişdir ki, o, gələcəkdə necə bir dövlətin, xalqın taleyini yaşayacaq. Əziz Əliyev bilməmişdir ki, neçə-neçə xalqların müqəddəratının təyin olunmasında xidmətləri olacaqdır.

Bu siyahını uzada bilərəm. Amma bilirəm ki, siz bunları gözəl bilirsiniz. Tibb Universitetini bitirən məzunlar hər zaman digər təhsil ocaqlarını bitirən məzunlardan fərqli olaraq ensiklopedik biliklərə malik olublar.

Əziz məzunlar! Mən əminəm ki, siz çağdaş müstəqil dövlətimizin zəhmətini və haqqını heç zaman unutmayacaq, xalqımıza layiqli şəkildə xidmət edəcəksiniz. Şahidsiniz ki, Azərbaycan nə qədər

(davamı səh. 8-də)






Yubiley

# Bir ömrə sığmayan əməllərin müəllifi



**İctimai sağlamlıq və səhiyyənin təşkilində dərin məzmunlu əsərləri ilə, elmi nailiyyətləri ilə özünəməxsus yer tutan, yorulmaq bilməyən, geniş dünyagörüşə, hərtərəfli biliyə malik olan Rafiq Çobanov çox uzun və şərəfli bir həyat yolu keçib. Rafiq müəllimi yaxından tanıyan hər kəs onun xeyirxahlığından, sadəliyindən, səmimiyyətindən ağız dolusu danışır. Rafiq müəllim vətənpərvər alim kimi hər an xalqımızın sağlamlığının qorunması üçün dəyərli təkliflər müəllifidir. Rafiq müəllimin iç dünyasına yaxından bələd olduqca onun nə qədər geniş ürəyə malik olduğunu duyursan.**

Rafiq Ənvər oğlu Çobanov 1944-cü il avqustun 13-də Bakı şəhərində anadan olub. O, 1962-ci ildə orta məktəbi bitirib və elə həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun sanitar–gigiyena fakültəsinə daxil olub. 1967-ci ildə ali məktəbi başa vuran R.Çobanov iş fəaliyyətinə S.M.Kirov adına Tibbi-parazitologiya və tropik təbabət Elmi-Tədqiqat İnstitutundan başlayır. O, burada çalışdığı 20 ildən artıq bir müddət ərzində kiçik və böyük elmi işçi, laboratoriya və şöbə müdiri, elmi işlər üzrə direktor müavini kimi vəzifələrdə işləmişdir. Rafiq Çobanov 1976–cı ildə namizədlik, 1986-cı ildə Moskva şəhərində doktorluq dissertasiyasını müdafiə edib. 1991-ci ildə isə professor elmi adını almışdır. O, 1989-cu ildən Tibbi- profilaktika İnstitutunda aparıcı elmi işçi və şöbə müdiri , 2005-ci ildən indiyədək isə Azərbaycan Tibb Universitetinin ictimai-sağlamlıq və səhiyyənin təşkili kafedrasına rəhbərlik edir.

Ömrünün bir dəqiqəsini belə boş keçirməyən Rafiq müəllim masa arxasında, auditoriyada, keçirdiyi istənilən tədbirlərdə ancaq ictimaiyyətin sağlamlığının qorunması haqda özünün elmi əsaslandırılmış fikirlərini bölüşür, hər əməkdaşının bu sahədəki uğuru ilə sevinir. O, düşünərək yaratmağı, yaradaraq düşünməyi bacaran elm xadimidir. Kafedraya rəhbərlik etdiyi müddətdə kifayət qədər kadrlar yetişdirməyinə baxmayaraq “hələ heç nə etməmişəm”-deyir. Bəzən sağlamlığını belə yaddan çıxaran Rafiq müəllim özünün xeyirxah əməlləri ilə rahatlandığını etiraf edir. Tələbələrinin uğurları, rezidentlərinin fəallığı ona sanki həyat verir. Yadımdadır, Rafiq müəllim rezidentlər haqda danışanda o qədər səmimi, o qədər fəxrlə onların uğurlarından söhbət edirdi ki, insan heyrətlənməyə bilmirdi. Ona elmlə bağlı müraciət edən hər kəsə böyük həvəslə kömək edir, və istiqamət verir.

Onun elmi rəhbərliyi altında 5 elmlər doktoru və 26 elmlər namizədi hazırlanmışdır ki, bu da bir ömrə sığmayan hər bir alim üçün kamillik və müdriklik məktəbidir. Onun müxtəlif sahələr üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. İşindəki məsuliyyət, ciddilik, özünə və işçilərinə qarşı tələbkarlıq, səmimiyyət, xeyirxahlıq kimi əməllər Rafiq Çobanovun gündəlik proqramıdır. O, indiyədək 240-dan çox məqalənin, 6 monoqrafiyanın, 9 dərsliyin və onlarca metodik materialların müəllifidir. İstedadlı alimin geniş miqyaslı şəxsiyyət olması, onun tibb elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onunla ancaq fəxr etmək olar.

Bununla yanaşı Rafiq müəllim sədaqətli dost, yaxşı yoldaş və gözəl ailə başçısıdır. Onun üç övladı - bir qızı, iki oğlu var. Övladlarını vətənpərvərlik ruhunda böyütmək Rafiq müəllimin həyat fəlsəfəsidir. Rafiq müəllimin əməlləri, elmi-pedaqoji fəaliyyəti gənclərimiz üçün əsl həyat məktəbidir. **“70”** illik ömrünü xalqına, vətəninə həsr edən Rafiq müəllimin görəcəyi işlər hələ irəlidədir. Ona bu yolda uğurlar arzulayırıq.

**Rafail Musayev,**
*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının assistenti*

NOBEL MÜKAFATI LAUREATLARI

# Böyük sevgi ilə elmə qovuşan həyat dastanı

**Mariya Skladovskaya (qız soy adı) Polşada anadan olub, Fransada Sarbon Universitetində oxumuş və sonrakı mənalı həyatını Parislə bağlamışdır.**

Hələ universitetdə oxuduğu illərdən elmə, onun ecaskar sirlərinə elə bağlanmışdır ki, hətta yaxınlarına yazığı qorxu, təlaş dolu məktubda da bunu hiss etmək olurdu: «Gün çox qısadır və buna görə heyifsilənirəm» .

1894-cü ildə Mariya Universiteti qurtarır və həmin ildən Parisdə işləməyə başlayır. Elə burada o, öz gələcək taleyi ilə – Pyer Küri ilə rastlaşır.

O illər Mariya çox çətin və vaxt aparan bir tədqiqatla müxtəlif növ poladda maqnitin xüsusiyyətlərini öyrənirdi. Qeyd etdiyimiz kimi bu işin öhdəsindən tək gəlmək qeyri-mümkün olduğu üçün tədqiqatın aparıcı professoru bu tədqiqata köməkçi kimi Pyer Kürini dəvət edir.

O vaxt Piyerin 36 yaşı vardır. O Mariyadan 8 yaş böyük idi.

Mariyanın bu insan haqqında ilk təəssüratı: - Pyer mənə çox cavan göründü. Məni cəzb edən isə onun açıq rəngli gözlərinin cazibəsi və bir də səliqəsizliyi oldu.

Sonralar xasiyyətlərində olan insani keyfiyyətlər – sadəlik, mərhəmət, xoş xasiyyət və ciddilik onları yaxınlaşdırdı.

Elə bu dövrdə fransız fiziki Bekkerel uran duzlarının məlum olmayan şüalanmasından fotoqrafik lövhələrin (işıqkeçirməyən plyonkaya bükülməsi) qaralmasını təmin etdiyini sübuta yetirdi.

Mariya və Pyeri bu hadisə çox maraqlandırır və onlar bu möcüzənin tədqiqinə başlayırlar. Uzun sürən, gərgin iş əsnasında məlum oldu ki, uran duzlarının bəzi nümunələri gözlənildiyindən də çox reaktivliyə malikdir. Bu, belə bir qəti qərar qəbul etməyə gətirib çıxartdı – deməli, tədqiq edilən minerallarda torniydən başqa, hələ məlum olmayan radioaktiv element var. Ancaq, hələ bunu sübut etmək lazım idi.

Sonralar Mariya öz xatirələrində yazırdı: «Bu tədqiqat üçün nə pulumuz, nə laboratoriyamız, nə də köməyimiz var idi. Problem isə çox çətin və lazımlı idi. Gərək heç nədən nəsə yaradaydıq.

Artıq Mariya və Pyer evlənmişdilər. Tədqiqatlar, elmi axtarışlar çətin də olsa davam edirdi. Nəhayət, mürəkkəb kimyəvi analizlər zamanı mineralın tərkibində iki naməlum elementin olduğu aydınlaşdı. Onlardan biri Mariyanın vətəni şərəfinə polenium, digəri isə radium adlandırıldı.

Yeni radioaktiv maddələrin aşkarlanması üçün



tərkibində poloni və radium olan uran duzlar lazım idi. Lakin bir tərəfdən bu mineral çox baha idi, digər tərəfdən isə onun tərkibində olan radioktiv elementlər cüzi miqdarda idi.

Buna görə də Mariya belə qərara gəldi ki, tədqiqat üçün bu mineralın özünü yox, istifadədən sonrakı (atılma) məhsullarını alsın.

Bu elm fədailəri öz fədakarlıqlarını Loğman küçəsindəki taxtadan düzəldilmiş zirzəmidə edirdilər. Bu zirzəmi əvvəllər anatomlar üçün meyitxana rolunu oynamışdır. Zirzəminin döşəməsi çat-çat olmuş alfaltdan, tavanı isə yağış sularını özündə saxlaya bilməmək dərəcəsinədək köhnə və sınıq olan şüşədən idi.

Mariya yazırdı: - Bura yayda cəhənnəm kimi isti, qışda isə soyuq buzlaqda olduğu kimi idi. Baxmayaraq ki gərginlik içərisində idik, ayaq üstə güclə dururduq, bizim ən gözəl günlərimiz burada keçdi.

O illər Pyer artıq Sarbon Universitetinin professoru idi və orada mühazirə oxuyurdu.

Ağır iş, üstəlik də şüalanma bu cütlüyün sağlamlığına artıq gözlə görünən dərəcədə təsir etmişdir. Zirzəmi həyatı dörd il ərzində Mariyanın 7 kq arıqlamasına təkan vermişdir.

1902-ci ildə böyük zəhmət tələb edən tədqiqatların nəticəsində onlar 1 mq-a yaxın təmiz radium-xlor ala bilmiş və bu qeyri-ali elementin atom çəkisini təqribən öyrənə bilmişdilər.

Bu vaxt bu böyük kəşf ərəfəsində Mariya və Pyeri heç nə düşündürmürdü, nə onun mükafatı, nə gəlir tərəfi. Onlar bu elmi kəşfi sirrə də çevirmirdilər.

Axır ki, 1903-cü ildə bütün dünya Mariya və Pyer Kürilərin Anri Bekkepello ilə birlikdə bu böyük tədqiqata görə Nobel mükafatına layiq görülməsi haqqında xəbər tutdu.

Bu illərdə Mariya yazırdı: «Bü da məşhurluq dərdi. Biz məktublardan və müxtəlif vizitlərdən cana doymuşuq. Razıyam ki, yerin altına girim, təki bizi sakit buraxsınlar.

Aldıqları mükafatın vəsaitinin çoxu tədqiqatlara və doğmalarının xərclərinə gedirdi.

19 aprel 1906-cı il. Dumanlı, çiskinli, yağışlı bir gün. Bu gün Pyer bir sıra işləri görməliydi. Univeristetdə alimlərlə, professor həmkarları ilə görüş, nəşriyyatdakı elmi məqaləsini oxuyub korrektə etmək, nəhayət Akademiyaya baş çəkmək.

Səhər Mariya ilə ayaqüstü bir neçə kəlmə kəsərək xüdahafizləşmişdir.

Alimlər evindəki səmimi görüş saat 15.30-da qurtarır. İndi nəşriyyata getmək vacibdır. Küçədə bərk yağış yağır. Pyer səhər evdən çıxarkən götürdüyü çətiri açır. Nəşriyyata çatdıqda məlum olur ki, nəşriyyat işləmir. Fəhlələr tətil edib.

Pyer geriyə qayıtmalı olur. Köhnə Parisin Derfin küçəsinə çatır. Küçə dardır, qarışıqlıqdır, arabalarla doludur. Küçənin səs-küyü, tramvayların zəngi, sürücülərin çığırtısı bir-birinə qarışmışdır. Pyer camaatın arasından keçərək səkiyə çıxır. Və geriyə doğru gedir. Həmişə olduğu kimi o, özünəqapılmış, fikirli vəziyyətdədir. Körpünü keçmək istəyir. Bu vaxt ona sürətlə yaxınlaşan faytonu görmür. Faytonu çəkən iri gövdəli yük atları sözün əsl mənasında alimin üstünə çıxır. Pyer atın yüyənindən tutmaq istəsə də, ayağı yaş körpüdə sürüşür və atın ayaqları altına yıxılır. Bu dəhşətli mənzərəni görənlər elə bilirlər ki, hər şey keçdi. Atlar yıxılanı ayaqlamadı. Lakin onların çəkdiyi ağır yüklü faytonun təkərləri Pyerin başını əzərək üstündən keçir.

Ətrafda toplanmış kütlə böyük alimi ona məxsus sənədləri cibindən götürdükdən sonra tanıyır.

Özünü itirən arabaçını isə hiddətlənmiş camaatın əlindən polisin gücü ilə alırlar.

Mariya 38 yaşında dul qalır. Bu dəhşətli olay onun qəddini əyir. Bu vaxt qızı Yevaya dediyi iki kəlmə onun şüurunda silinməz izə dönür: «Pyer öldü».

Elə həmin gündən Mariya təkcə dul yox, həm də talesiz bir qadına, ailə başçısına çevrilir.

Mariya bütün məhəbbət və hissərini tərtib etdiyi gündəliyə etibar edərək, sanki Pyerlə danışırdı: «Əziz Pyer, ancaq səni fikirləşirəm, bütün ağlım və varlığımla fikirləşirəm, mən səni görmədən, sənin gülüşünü və səsini eşitmədən necə yaşayacağam. Küçə ilə gedirəm, elə bil qaranlıqdayam. Mən özümə əl qaldırmayacağam. Ancaq hey fikirləşirəm ki, ola bilməzmi ki, belə bir epipaj mənə də, sənin ölümün kimi bir ölüm bəxm etsin.

Mariya bu əzablara qatlaşaraq Pyerlə başladığı tədqiqatları davam etdirirdi.

Tezliklə Sarbon Universitetində tarixdə görünməyən bir olay baş verir. Ona – qadına professor adı verilir və o, Pyer Kürinin başçılıq etdiyi kafedraya müdir təyin edilir. Uzun axtarışların nəticəsi olaraq təmiz radiumu alır və onun fiziki-kimyəvi xüsusiyyətlərini müəyyənləşdirir.

Bu niyyətinə görə Mariya Küri ikinci dəfə Nobel mükafatına layiq görülür.

Ömrünün axırına yaxın Mariya dünyanın bir sıra dövlərtlərində olur. Onun 60 yaşı olmasına baxmayaraq, sutkanın 12-14 saatını labaratoriyasında keçirirdi.

1934-cü il. Mariya Fransanın cənubuna avtomobil səyahətinə çıxır. Yolda özünü çox pis hiss edir. Həkimlər heç cür diaqnoz qoya bilmirlər. Ancaq o zamanın tanınmış həkimi professor Roşi ona pis xassəli anemiya diaqnozu qoyur.

Uzun ilər radioaktiv maddələrlə təmas öz işini görmüşdü. Xəstəlik uzun və ağır sürür, sağlam orqanizm heç cür xəstəliyin qarşısında əyilmək istəmir.

Həkimlər və əzizləri hər gün 24 saat xəstənin yanında olurlar.

4 iyul 1934-cü il. Səhərə yazın Mariyanın ürəyi dayanır.

Öz istəyi ilə mərhumun cəsədi heç bir təntənə olmadan ailə sərdabəsinə qoyulur.

Mərasim dost və qohumların istirakı ilə çox sadə başa çatdırılır. Onun tabutu Pyerin tabutu ilə yanaşı qoyulur.

Qəbr üstə yazı: Mariya Skladovskaya Küri 1867-1934. Bu da böyük ömrün, böyük məhəbbətin, böyük elmin sonu.

İndi onların həyatı qızlarının həyatı ilə yaşanır.

Eva – tanınmış jurnalistdir.

İren – ömrünü elmə bağlamışdır.

Tarix təkrar olunur

İren ixtisasca fizik olan Fredri Xalio ilə həyat qurub. Hər ikisi Xalio-Küri soyadını qəbul edib.

Onlar birlikdə daha bir ixtiraya imza atırlar. «Süni radioaktivlik».

Bu ixtiraya görə onlar Nobel mükafatına layiq görülürlər.

**Hazırladı:**
**Elmira BÜNYADZADƏ,**
*Histologiya, embriolgiya və sitologiya kafedrasının dosenti*

# Naftalan möcüzəsi

**Yerüstü və yeraltı təbii sərvətləri ilə zəngin Azərbaycan həm də möcüzələr diyarıdır. Bu möcüzələr sırasında naftalan nefti xüsusi yer tutur. Çünki, o adi bir möcüzə olmayıb, həm də insanların sağlamlığının qorunub-saxlanılmasında mühüm rol oynayır. Respublikamızın dilbər guşələrindən sayılan Naftalan rayonu ərazisindəki möcüzəli naftalan neftinin səs-sorağı nəinki Respublikamızda, eyni zamanda ölkəmizin hüdudlarından kənarda da geniş yayılmışdır. Naftalan neftinin bir çox xəstəliklərin müalicəsində əvəzsiz rol oynaması barəsində dəfələrlə elmi əsər və məqalələrdə qeyd olunmuşdur.**

Son illərdə Respublikamızda aparılan abadlıq və quruculuq işləri göz qabağındadır. Paytaxtımızda və regionlardakı sağlamlıq-müalicə komplekslərinin yenidən qurularaq insanların ixtiyarına verilməsi bunun bariz nümunəsidir. Əlbəttə, bütün bunlar insanların sağlamlığının qorunmasında və istirahətlərinin düzgün təşkil edilməsində əvəzsiz rol oynayır. Bu yaxınlarda istirahət etdiyim və müalicə aldığım Naftalanın "Qaşaltı - Rixos Hotel" sanatoriyasında yaradılan şərait və insanlara göstərilən xidmət barəsində olan təəssüratlarımı oxucularımızla bölüşmək istəyirəm.

Sanatoriyaya qədəm qoyduğumuz ilk andan etibarən çox mehriban və gülərüz xidmətçi personallarla qarşılaşmağımız bizdə xoş bir təəssürat yaratdı. Üzlərindən təbəssüm əskik olmayan qeydiyyatçılardan Qocayeva Şahnazı, Kərimova Şəfanı, Quliyeva Şəbnəmi, Əliyeva Aynurəni, Bayramova Gülgəzi xüsusi qeyd etmək istərdim. Onlar gələn qonaqları çox qısa bir müddətdə yüksək standartlara cavab verən, hər bir şəraiti olan təmiz otaqlarda yerləşdirməklə yanaşı, sanatoriya barəsində lazım olan bütün informasiyaları verirdilər.





*Burada olarkən özünü sanki ən yaxın və doğma adamlarının əhatəsində hiss edirsən. Həkimlər, tibb bacıları və digər işçilər hamıya qayğı ilə yanaşır, onların bütün rahatçılıqları üçün əllərindən gələni əsirgəmirdilər. Sanatoriyaya daxil olan hər bir şəxs ilk növbədə poliklinika şöbəsində bütün müayinə prosedurlarından*



*keçirilirlər. Əlbəttə, bu yerdə çox yüksək bilik və mədəniyyətə malik, ultrasəs müayinə üzrə gözəl mütəxəssis Elnurə xanımın adını çəkmək yerinə düşərdi. Müayinə prosedurası tam başa çatdıqdan sonra hər bir xəstə üçün həkim-terapevtlər tərəfindən fərdi olaraq müalicə prosedurları təyin olunur. Müəyyən xəstəliklər səbəbindən naftalan vannaları əks göstəriş olduqda, həmin xəstələrə alternativ vannalar təklif olunur. İnsanlara yanaşma tərzi ilə seçilən, öz işinin ustası olan terapevt Kəmaləddin həkim çox peşəkarcasına hər bir kəsi səbrlə dinləyib lazım olan bütün müalicə işlərini təyin etməklə yanaşı, gündəlik olaraq xəstələrin hal-əhvalı ilə maraqlanar, lazım gəldikdə müalicə qrafikinə dəyişiklik edərdi.*

Sanatoriyanın vanna şöbəsində yaradılan şərait, səliqə-səhman in-



sanı valeh edir. 33 ildən artıq Naftalan sanatoriyalarında iş təcrübəsinə malik, terapiya şöbəsinin tibb bacısı Cavadova Şahidə xanımın hamını mehribanlıqla qarşılıyıb, yola salması insanda xoş bir təəssürat yaradır. Vanna təmizləyicisi Babayev Nicatın işgüzarlığına və peşəkarlığına isə söz ola bilməz.

Hər cür aparat və avadanlıqlarla təmin olunmuş fizioterapiya şöbəsində hamı, qabaqcadan tutulmuş qrafikə uyğun olaraq növbəlilik prinsipi gözlənilməklə qəbul olunur. Burada çalışan tibb bacıları Gərayzadə Aişənin, Ramazanova Zülfiyyənin, Əliyeva Mayanın çalışqanlıqları çox tədqirəlayiqdir.

Sanatoriyada xəstələrin düzgün qidalanmasına xüsusi diqqət yetirilir. Təmizlik və səliqə-səhmana ciddi əməl olunan çox geniş və rahat yeməkxanada milli və türk mətbəxinin cürbəcür çeşidlərindən istifadə olunur.

Müalicə ocağında görülən bütün işlərə başçılıq edən, həddindən artıq işgüzar və çox gözəl təşkilatçı olan sanatoriyanın baş həkimi Şahin Babayevi xüsusilə qeyd etmək istəyirəm. Sanatoriyada olduğum müddətdə müsahibə götürmək üçün dəfələrlə kabinetinə getsəm də, onu yerində tapa bilmirdim. Səhər saatlarından başlayaraq iş gününün axırınadək özü şəxsən müalicə prosedurlarına nəzarət edir, xəstələr ilə hal-əhval tutar, onların problemlərinin həllinə çalışardı. Nəhayət ki, onunla görüşə bildim.



**Sanatoriyanın baş həkimi Şahin Babayevin dediklərindən:**
"Özüm ziyalı ailəsindənəm. Atam, Gəncəbasar bölgəsində tanınmış ziyalılardan olmuşdur. Gözəl maarifçi, əməkdar müəllim idi. Uzun müddət Goranboy rayon təhsil şöbəsinə rəhbərlik etmişdir. Ailədə beş uşaq olmuşuq. Anam evdar qadın idi. Hamımız ali təhsilliyik. Azərbaycan Tibb Universitetini bitirmişəm. Mənə təbabətin sirlərini öyrədən müəllimlərimi ehtiramla xatırlayıram. 1982-ci ildən Naftalanda çalışıram. Onu da deyim ki, burada fəaliyyət göstərən həkimlərin böyük əksəriyyəti Azərbaycan Tibb Universitetinin məzunlarıdır.

Təhsildə, həyatda qazandığım uğurlarıma görə atama borcluyam.

Mən, keçmiş SSRİ-nin bir çox şəhərlərinin kurort və sanatoriyalarında olmuşam. Hər dəfə onlarda olan şəraiti gördükcə özümüzdə də belə bir müalicə ocaqlarının yaradılmasını arzulayırdım. Ölkəmiz müstəqillik qazandıqdan sonra əvvəlcə "Çinar", sonra "Qaşaltı" sonatoriyası tikilib istifadəyə verildi. İndi isə "Qarabağ" sanatoriyası tikilir. Sanatoriyamızda 160-a yaxın işçi çalışır. Onların hamısı Naftalan şəhərində və onun ətraf kəndlərində yaşayan insanlardır. Getdikcə turizm bu zonada inkişaf etməyə başlayır. Biz türkiyəli iş adamları ilə birgə çalışırıq. Turizm sahəsində onlar daha çox irəliyə getmişlər. Xüsusilə texniki təchizat və mətbəx məsələlərində onlar daha çox təcrübəyə malikdirlər.

Burada naftalan faktoru böyük rol oynayır. Bu da gələcəkdə Gəncəbasar zonasının turizm sahəsinin inkişafına böyük təsir göstərəcəkdir. Sanatoriyamız yenicə təmirdən çıxıb. İndi gələn qonaqların sayı biz gözlədiyimzdən də artıqdır. 2008-ci ildə hörmətli prezidentimiz İlham Əliyevin verdiyi qərardan sonra çox qısa bir müddətdə bu sanatoriya tikildi və 2011-ci ilin sentyabr ayının 1-də istifadəyə verildi. Dövlətimiz neftçilərə belə qayğı göstərirsə, biz həkimlər də çalışmalıyıq ki, bura gələn qonaqlarımız dövlətin qayğısı ilə tikilmiş bu müalicə ocağından razı qalsınlar. Vaxtilə mən "Çinar" sanatoriyasında çalışmışam. Ümumiyyətlə, 30 ildən artıq müddətdir ki, mən naftalanla məşğulam. 2001-ci ildən 2011-ci ilə qədər Gəncədə özəl klinikanın baş həkimi işləmişəm. Həmin klinika indi də fəaliyyət göstərir.

"Qaşaltı" sonatoriyası açılanda, mən Dövlət Neft Şirkəti tərəfindən buraya dəvət olundum. Artıq 2 ildir ki, burada çalışıram. Qısa zaman ərzində sanatoriyanın poliklinika və vanna şöbələrində gözəl şərait və nizam-intizam yaratdıq. Bu yaxınlarda sanatoriyamız üçün ən müasir tibbi avadanlıqlar alınıb gətiriləcəkdir. Bu da müalicə işinin təşkilində bizim əlimizdə çox gözəl vasitə olacaqdır. Bizim həkimlərimizin hamısı bilikli və təcrübəlidir. Onların əksəriyyəti uzun illərdir ki, Naftalanda çalışırlar."

Əlbəttə, "Qaşaltı" sanatoriyası barəsində olan təəssüratlarımı bir yazı ilə yekunlaşdırmaq qeyri-mümkündür. Sonda isə, insanlara sağlamlıq və gözəl əhval-ruhiyyə bəxş edən bu cür sağlamlıq-müalicə ocağında çalışan, adını çəkmədiyim rəhbər işçilərdən tutmuş, bütün işçilərə təşəkkür etmək istəyərdim.

Biz də dövlətimizin və ölkə başçımızın göstərdiyi bu diqqət və qayğıya biganə qalmamalı, hər birimiz çalışdığımız sahəmizdə öz əməyimizlə doğma Respublikamızın daha da inkişaf etdirilməsi və çiçəklənməsi uğrunda öz töhvəmizi əsirgəməməliyik.

**Süçəddin HÜSEYNOV,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Azərbaycan Tibb Universiteti növbəti məzunlarını yola salır

(əvvəli səh. 4-5-də)

böyük inkişaf yolu keçib. 20 ildə 100 ilə sığmayan nailiyyətlər əldə




olundu. Azərbaycan yerləşdiyi coğrafiyaya görə çox çətin və





mürəkkəb dövrünü yaşayır. Əminəm ki, Tibb Universitetinin





məzunları öz peşə sahələrində, istərsə də dövlətçiliyimizin güclənməsində ulu öndərin bizə əmanət qoyduğu, günü–gündən inkişaf



etmiş bu gözəl dövlətə layiqincə xidmət edəcək. Əminəm ki, möhtərəm prezidentin son 10 ildə Azərbaycanın bütün bölgələrində əldə etdiyi nailiyyətlərlə bağlı gördüyü xidmətləri, tibb universiteti üçün verdiyi dəyəri məzunlarımız unutmayacaq. Bir həkim və vətəndaş kimi həmişə möhtərəm prezidentimizin siyasətini dəstəkləyəcək, dövlətimizin gələcək inkişafında yorulmaz fəaliyyət göstərəcəklər. Hamınıza uğurlar arzulayıram.

Məzunlar adından çıxış edən Göhəri Leyli və Pərvin Cəfərov isə çıxışlarında var qüvvələri ilə çalışacaqlarını, müəllimlərin etimadını doğruldacaqlarını söylədilər.

Universitetin tədris hissə müdiri, dosent Nəsimi Qasımov 2014-cü ilin məzunlarına həkim adının verilməsi haqqında rektorun müvafiq əmrini oxudu və universiteti bitirən məzunların statistikasını açıqladı.

Hərbi tibb fakültəsinin müdavimlərinin əzəmətli marşın sədaları altında nizami keçidi tədbir iştirakçılarında böyük coşqu yaratdı.

**Məzunlar təntənəli şəkildə Azərbaycan həkim adını qəbul etmək üçün Həkim Andı içdilər.**

Sonra tədbirin bədii hissəsi başladı. Azərbaycanın ünlü sənətkarları maraqlı musiqi nömrələri ilə çıxış etdilər.

**Bəlkə də bu gün məzunların yaddaşında əbədi həkk olacaq, onu deyə bilmərik. Amma tələbəlik illərində keçirilən günlər heç zaman unudulmayacaq. Elə mərhum şairimiz Cabir Novruz demişkən:**

*Sızlar yada düşəndə,*
*Ürəyimin telləri.*
*O mehriban, o əziz*
*Tələbəlik illəri.*

**... Yada düşdükcə məzunlrın ürəyinin telləri sızıldayacaq, fəaliyyətlərinə bir şirinlik qatılacaqdır.**

**Arif MƏMMƏDLİ,**
**Qabil ABDULLAYEV**

**Fotolar Cənnətalı CİNGİZİNDİR**

## Oxucularımızın yaradıcılığı

### BİR ANA LAYLASI İSTƏYİR KÖNLÜM



Dəli külək olub coşmaq istərəm,
Bulaq tək qaynayıb daşmaq istərəm.
Çaylara qarışıb axmaq istərəm,
Bir ana laylası istəyir könlüm...

İçimdə, çölümdə tufan olmuşam,
Qönçə bir gül ikən açıb solmuşam.
Dindirmə, dərdliyəm, yaman dolmuşam,
Bir ana laylası istəyir könlüm...

Ləçəyi saralmış gülə bənzərəm,
Baharı bəd gəlmiş ilə bənzərəm.
Alovu səngimiş külə bənzərəm,
Bir ana laylası istəyir könlüm...

Deyərdim anam var, başda tacım var,
Nə qəmim, nə qüssəm, ağrım-acım var...
Ana nəfəsinə ehtiyacım var,
Bir ana laylası istəyir könlüm...

Pəriyəm, qəm yükü, qəm aləmiyəm,
Tufanda vurnuxan sınıq gəmiyəm.
Qanadları sınmış şahin kimiyəm,
Bir ana laylası istəyir könlüm...

### AMAN ALLAH, GÖYÇƏ MƏNİ GÖYNƏDİR

Gözüm yaşı axıb selə dönübdü,
Cismi canım yanıb külə dönübdü.
Vətən əl yetməyən elə dönübdü,
Aman Allah, Göyçə məni göynədir.

Yaylağında qız-gəlinin nazı yox,
Bulaq üstə gözəllərin izi yox.
Məclisində Ələsgərin sazı yox,
Aman Allah, Göyçə məni göynədir.

Məndən ötrü Göyçə gölü göz yaşı,
Sinəmdədi qərib yurdun təlaşı...
Kəbəm olub hər qayası, hər daşı,
Aman Allah, Göyçə məni göynədir.

Necə çəkim bu Vətənin dərdini,
Yada qalan çöl-çəmənin dərdini?
Çəkəmmirəm, Göyçə, sənin dərdini,
Aman Allah, Göyçə məni göynədir.

“Şahdağ” boynuburuq, çarəsiz qalıb,
Dağları igidsiz, nərəsiz qalıb...
Pəri bulaqları, Pərisiz qalıb,
Aman Allah, Göyçə məni göynədir.
17. 06. 2014.

**Pəri İSAQOVA**
*ATU-nun əməkdaşı*

## Etibarsız sayılır

Əczaçılıq fakültəsinin III kurs, 840[a] qrup tələbəsi Qədirov Elnur İntiqam oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 305[b] qrup tələbəsi Mertcan Bingölün adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Teymurova Sevinc Niftəli qızına 1989-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terpevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mürsəlova Aytən Ədalət qızına 2004-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Tünzalə Əddin qızına 2007-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən həkim laborant ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Muradov Azər Müqdət oğlina 2008-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 20[b] qrup tələbəsi İsgəndərova Xuraman Bəhrəm qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi Tibb Fakültəsinin I kurs, 1150[b] qrup tələbəsi Ataxanlı Elmin Zahid oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 168